Xalq qəzeti 2021.14 fevral. S.5.

**Cənub Qaz Dəhlizi nəinki region, bütün Avropa üçün ən vacib təşəbbüslərdən sayılır. Bu qaz dəhlizinin reallaşması Prezident İlham Əliyevin müdrik rəhbərliyi və siyasi iradəsi nəticəsində mümkün olub. Layihə müzakirə edilən zaman həm maliyyələşdirmə, həm də boru kəmərinin keçəcəyi coğrafi ərazilərlə bağlı fərqli yanaşmalar var idi. Bütün bunlara rəğmən Azərbaycanın dəstəyi ilə region və qitə üçün əhəmiyyətli hesab olunacaq Qaz Dəhlizi layihəsi gerçəkləşdi.**

# Cənub Qaz Dəhlizi Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradır

Cənub Qaz Dəhlizi Azərbaycan təbii qazının Türkiyə və Avropaya çatdırılmasını təmin edir. Hər il keçirilən Məşvərət Şurasının iclası illik fəaliyyətlərin müzakirə edilməsi, sistemləşdirilməsi baxımından vacib hesab olunur. Cənub Qaz Dəhlizi Türkiyə bazarına illik olaraq əlavə 6 milyard kubmetrdən çox qazın nəql edilməsini nəzərdə tutur. Eyni zamanda, TAP kəməri vasitəsilə Avropaya ilk mərhələdə 10 milyard, ikinci mərhələdə 20 milyard qaz nəql ediləcək. Bütövlükdə, Cənub Qaz Dəhlizinin ötürmə qabiliyyətinin 32 milyard kubmetrə çatdırılması imkanı var.

Ötən il dekabrın sonunda Cənub Qaz Dəhlizi vasitəsi ilə Azərbaycan qazı Avropaya daxil oldu. Bu baxımdan bu qaz dəhlizi Avropa üçün mühüm önəm daşıyır. Eyni zamanda, Mərkəzi-Şərqi Avropadan Bolqarıstan daxili şəbəkə vasitəsilə adı çəkilən qaz dəhlizindən mavi yanacaq almaq niyyətindədir. Bu isə o deməkdir ki, Cənub Qaz Dəhlizi ilə ötürülən qazın Avropaya çatdırılma miqyasının genişlənməsi istisna edilmir.



Beləliklə, Cənub Qaz Dəhlizi Azərbaycanın regional mövqeyinin daha da möhkəmlənməsinə imkan yaradır. Gələcək illərdə bu layihə region və qitə üçün əhəmiyyətli olmaqda davam edəcək.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***